**Tarix və onun problemləri, №4 2009**

**LEYLİ HƏMİDOVA**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*

# TÜRKİYƏ - AVROPA İTTİFAQI MÜNASİBƏTLƏRİNDƏ MİLLİ AZLIQLAR MƏSƏLƏSİ

XX əsrin sonlarında Türkiyə və Avropa İttifaqı arasındakı münasibətlər yeni mərhələyə qədəm qoydu. 1999-cu il dekabrın 10-da Avropa İttifaqının Helsinki zirvə görüşündə Birliyin namizəd ölkəsi statusuna layiq görülən Türkiyə Aİ-yə tam hüquqlu üzv olmaq məqsədilə aktiv fəaliyyətə başladı.

Helsinki yekun aktında bütün namizəd ölkələrin Aİ-yə daxil olmaq məqsədilə iqtisadi, siyasi və sosial sahələrdə geniş islahatlar proqramını qəbul etməsi nəzərdə tutulurdu. Həmçinin, Türkiyə 2000-ci ildə Avropa İttifaqı ilə əməkdaşlığın bütün şərtlərini özündə birləşdirən Birliyə Qoşulma Sənədi qəbul etdi və onun çərçivəsində üzərinə qoyulan öhdəliklərin yerinə yetirilməsinə başladı. Lakin, Aİ-nin Türkiyə üzərinə qoyduğu tələblər sadəcə Helsinkidə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi ilə bitmirdi. Avropa İttifaqı Türkiyə üzərinə bəzi «şərtlər» də qoyurdu. (7,111) Bu şərtlər içərisində milli azlıqların hüquqlarının qorunması, xüsusilə Türkiyədə kürdlərə münasibət Aİ–nın daima nəzər diqqətində olan məsələlərdəndir. Türkiyə höküməti kürd məsələsinin onun daxili işi olmasını dəfələrlə qeyd etməsinə baxmayaraq, Aİ hələ də Türkiyədə insan hüquqları və milli azlıqlara (xüsusilə kürdlərə) münasibətin Avropa standartlarına uyğun olmadığını iddia edir.(5, 223)

Türkiyə–Aİ münasibətlərində bu problemi araşdırmaq üçün milli azlıqların hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq sənədlərə diqqət yetirmək vacibdir.

1966 –cı ildə qəbul edilmiş Ümumi insan hüquqları haqqında sənədə əsasən irqindən, rəngindən, cinsindən, dilindən, dinindən, siyasi düşüncəsindən, etnik və sosial mənsubiyyətindən, əmlak və sosial vəziyyətindən asılı olmayaraq bütün insanların hüquqları bərabərdir. Bəyannamədə hər bir insanın yaşamaq, azad olmaq və şəxsi toxunulmazlıq huququ təsbit olunur, həmçinin insan köləliyinin və qul ticarətinin bütün formaları qadağan edilməklə yanaşı, şəxsi və ailə toxunulmazlığı, yaşamaq məqsədilə hər hansı bir dövlətin ərazisində məskunlaşmaq sərbəstliyinin mövcudluğu bildirilir. (5.128)

Milli azlıqların hüquqları ümumi insan hüquqları içərisində ən əhəmiyyətli məsələlərdəndir. İnsan hüquqlarının bir parçası olan milli azlıqların hüquqları hər hansı bir ölkədə yaşayan və azlıqda olan xalqlara dövlət tərəfindən tanınan və qrup halında istifadə edilən insan hüquqlarıdır. (9, 112) Lakin İnsan hüquqları haqqında ümumi bəyannamədə milli azlıqlar məsələsinə geniş yer verilməmişdir. Sadəcə Vətəndaşlıq və Siyasi Hüquqlar haqqında paktın 27-ci maddəsinə əsasən milli azlıqların ana dillərindən istifadə hüquqlarının olması, dini və adət ənənələrdən sərbəst istifadəsi qeyd edilirdi. Lakin paktda azlığa mənsub şəxslərin hüquqlarının təminatı nəzərdə tutulmurdu.(8, 112)

1960-ci illərdə Avropada bu məsələyə nisbətən diqqət artırılmağa başlandı. 1975-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq haqqında yekun aktında, 1980–ci il Madriddə və 1986–cı il Vyanada qəbul olunmuş ATƏT-in yekun sənədlərində dövlətlərin ərazilərində ilk dəfə olaraq milli azlıqların mədəni, dil və dini azadlıqlarının tanınması təsbit olunurdu. Daha sonra Kapenhagen konfransının sənədlərində də (1990 iyun ) milli azlıqların kollektiv hüquqları təsdiqlənir, onların öz dillərindən şəxsi və ictimai

həyatda istifadəsinə, öz dinlərinə sərbəst etiqadı, azad təhsil sisteminin formalaşdırılması, mədəni və dini mərkəzlərin yaradılması sərbəstliyi verilirdi. (10, 118)

1992–ci il Milli azlıqların hüquqlarının qorunması ilə bağlı BMT bəyannaməsi və 1994–ci ildə Avropa Şurası tərəfindən Milli azlıların hüquqlarının qorunması ilə bağlı çərçivə sazişləri də azlıqda olan xalqların hüquqları ilə bağlı məsələlərin tənzimlənməsinə mühüm rol oynamışdır.

Bu sazişlər içərisində əsas müqavilə 1992–ci ildə milli, yaxud etnik, din və dil azlıqlarına məxsus şəxslərin huquqları haqqında BMT bəyamnaməsidir. Birləşmiş Millətlər Təşkilatı öz nizamnaməsində irqindən, dilindən və dinindən asılı olmayaraq, insanın əsas hüquqlarını və azadlıqlarını təsbit edir. BMT nizamnaməsinin prinsipləri İnsan Hüquqları Haqqında Ümumi bəyamnamənin, «Genosid cinayətinin baş verməsi barədə xəbərdarlıq və onu törədənlərə qarşı cəza tədbirləri haqqında» konvensiyanın, «İrqə görə hüquq pozuculuğunun bütün formalarının ləğvi haqqında» Beynəlxalq Komissiyanın, İqtisadi, Sosial və Mədəni Hüquqar haqqında Beynəlxalq Paktın, «Dinə və yaxud inamına görə hüquq pozuculuğunun bütün formalarına yol verilməməsi haqqında» bəyamnamənin, «Uşaq hüquqları haqqında» bəyamnamənin, eləcə də ümumdünya və yaxud regional səviyyədə qəbul olunmuş sənədlərin, BMT–nin üzvü olan ayrı-ayrı dövlətlər arasında bağlanan müqavilənin həyata keçirilməsini təşviq edəcəyini bildirir. Bütövlükdə, milli yaxud etnik, dil və din azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqında bəyamnamədə aşağıdakı məsələr yer alır:

- Milli, yaxud etnik, mədəniyyət, dil və din azlıqlarının özünəməxsusluğunu dövlətlər öz ərazilərində qoruyaraq, həmin xüsusiyyətlərin daha da inkişaf etdirilməsi hallarını təşviq edir ;
- Milli, yaxud etnik, dil və din azlıqlarına mənsub olan şəxs (gələcəkdə milli azlığa mənsub şəxslər adlanacaq), öz milli mədəniyyət dəyərlərindən istifadə etmək, öz dillərində etiqad göstərmək və dini mərasimlərini keçirtmək, eləcə də öz ana dilindən həm şəxsi həyatında, həm də ictimai yerlərdə heç bir təzyiqə məruz qalmadan istifadə edə bilər;
- Azlığa mənsub olan şəxslər dövlətin mədəni, dini, ictimai və iqtisadi həyatında fəal iştirak edə bilərlər ;
- Azlığa mənsub olan şəxslər milli qanunvericiliyə zidd olmayan ümumxalq səviyyəsində, hətta lazım gələrsə, onların mənafeyi ilə bağlı regional səviyyədə qərarların qəbul olunmasında da iştirak etmək hüququna malikdirlər;
- Azlığa mənsub olan şəxslər öz assosasiyalarını yarada və onun fəaliyyətinin təşkil edə bilərlər;
- Azlığa mənsub olan şəxslər hər hansı bir hüquq məhdudiyyətinə yol verilmədən öz milliyyətlərinə aid olan qrupların nümayəndələri ilə, eləcə də başqa dövlətlərin ərazilərində yaşaya və onlara milli, etnik, dil və din bağlılığı olan azlıqlarla müstəqil sülh müqavilələri bağlaya bilərlər;
- Azlığa mənsub olan şəxslər öz hüquqlarını, eləcə də bu bəyamnamədə nəzərdə tutulan hüquqları heç bir hüquqi məhdudiyyətə məruz qalmadan həm fərdi şəkildə, həm də qrupun başqa üzvləri ilə birgə həyata keçirə bilərələr;
- Azlığa mənsub olan şəxslərin bütün insani hüquqlarını və əsas azadlıqlarını daha səmərəli şəkildə həyata keçirərkən hər hansı bir qanun pozuculuuna yol verilməməsinə eləcə də qanun qarşısında hamının tam bərabərliyinin təmin edilməsi üçün dövlətlər lazım gələn bütün tədbirləri görürlər;
- Dövlətlər azlıqlara mənsub olan şəxslərə elə əlverişli şərait yaradır ki, onlar özünəməxsus xüsusiyyətləri təzahür etdirərək öz mədəniyyətlərini, dillərini, dinlərini və

adətlərini daha da inkişaf etdirsinlər. Fəqət onların bu fəaliyyəti milli qanunverijiliyi və beynəlxalq normaları pozmamalı, onlarla ziddiyyət təşkil etməməlidir;

- Dövlətlər belə tədbirləri o zaman ğörürlər ki, azlıqlara mənsub şəxslər bunları öz ana dillərində həyata keçirmək iqtidarında olsunlar;

- Dövlətlər lazım gələrsə, təhsil sahəsində elə tədbirlər görməlidirlər ki, ölkə ərazisində yaşayan azlıqlar öz tarixlərini, adət ənənələrini, dillərini və mədəniyyətlərini daha yaxşı öyrənə bilərlər;

- Milli siyasət və proqram elə planlaşdırıb aparılmalıdır ki, onlarla azlıqlara mənsub olan şəxslərin qanuni maraqları tamamilə öz əksini tapmış olsun;

- Qarşılıqlı anlaşmanı və etibarı təşviq etmək məqsədilə dövlətlər öz aralarında əlaqələr sahəsində də təcrübə və informasiya mübabidləsi aparmalıdırlar. (2, 8)

- Avropada Milli azlıqların hüquqlarının qorunması ilə bağlı qəbul edilən ən son sənəd milli azlıqların müdafiəsinə dair Avropa Konvensiyasıdır. 1994-cü ildə Avropa Şurası tərəfindən qəbul edilən Milli Azlıqların Müdafiəsinə dair konvensiyaya əsasən azdıqların qanun qarşısında bərabərliyini təmin etmək, mədəniyyətlərinin qorunması və inkişafı, özünüdərketmənin, dinlərin milli azlıq dillərinin və ənənələrinin qorunması, mediyaya çıxışın təmini və sərhədlər boyu azad və dinc əlaqələrin qurulması nəzərdə tutulurdu. Konvensiyada əməkdaşlıq və yardım proqramları çərçivəsində milli azlıqların müdafiəsi üçün müxtəlif tədbirlərin həyata keçirilməsinin vacibliyi də qeyd olunur. (1, 32)

- Bu konteksdə Aİ-nın Türkiyədəki milli azlıqlara olan münasibətindən narazı mövqeyi beynəlxalq hüquq normaları cəhətdən tam əsaslandırılmışdır. 1998-ci ildən etibarən Birliyinin Türkiyəyə təqdim etdiyi İnkişaf məruzələrinin hamısında (2006-ya qədər) Türkiyənin milli azlıqlara münasibətinin Aİ standartlarına uyğun gəlmədiyi bəyan edilmişdir. Məsələn, 1998-ci ildə verilmiş İnkişaf məruzəsinin «Milli azlıqların hüquqları və onların qorunması» bölməsində Lozzanna sazişinə (1923) əsasən Türkiyədə ermənilər (50 min), yəhudilər (25 min), yunanlar (5 min) olmaqla 3 milli azlığın yaşadığı qeyd edilir.(4, 262) Bununla yanaşı Türkiyədə sayı 8-15 milyon arasında dəyişdiyi təxmin edilən kürdlər yaşayır.(4, 263) Lakin Türkiyə kürdləri milli azlıq olaraq qəbul etmir. Bu məruzədə kürd məsələsi ilə bağlı problemlərin həll edilməsi və hətta Türkiyə hökümətinin «PKK ilə müzakirələrə» getməməsi belə pislənmişdir. «Cənub şərqi Türkiyədəki vəziyyət hərbi üsulla deyil, sivil yollarla öz həllini tapmalıdır» deyə Avropa Komisiyasının açıqlamasında bildirilirdi. Bir il sonra verilən İnkişaf məruzəsində də Aİ yenə kürd məsələsinə xüsusi diqqət ayırırdı. Burada Abdullah Öcalanın tutulması və ölüm cəzasına məhkum edilməsi məsələsinə münasibətini ifadə edən Aİ Komissiyası «Terorizmə qarşı mübarizə insan hüquqlarına, hüququn üstünlüyü və demokratik qanunlara hörmət edilərək həyata keçirilməlidir» deyə bildirirdi. Məruzədə yer alan «Kürd məsələsinin siyasi həlli», yəni Öcalana kəsilən cəzanın yüngülləşdirilməsi Aİ tərəfindən Türkiyə üzərinə qoyulan öhdəlik olaraq qiymətləndirilməlidir.(4,200) Aİ Komissiyası 1999-cu il məruzəsində açıq şəkildə bəyan edirdi ki, Türkiyədə Kopenhagen meyarlarının həyata keçirilməsi üçün münbit şərait yoxdur. İnsan hüquqları və milli azlıqların hüquqlarının qorunması məsələsində böyük çatışmasızlıqlar mövcuddur və s.

- 2000-2001-ci illərdə Türkiyəyə təqdim olunan İnkişaf məruzələrində Aİ Türkiyənin Milli azlıqların qorunması üçün Avropa Şurası Çərçivə Sazişini imzalamadığını və Lozzanna sazişində nəzərdə tutulan milli azlıqlardan başqa (bunlar ermənilər, yəhudilər və yunanlardır) digər milli azlıqların hüquqlarını tanımaması ilə bağlı məsələdə heç bir irəliləyişin baş verməməsindən narahatlığını ifadə edirdi. Xüsusilə televiziya yayımı və təhsil sahəsində milli azlıqların hüquqlarının qorunmadığını vurğulayan Aİ Komissiyası 3984 saylı qararla dünyəvi mədəniyyətin, elmin inkişafına fayda verən dillər istis-

na olmaqla, radio və televiziya verlişlərinin yalnız türkcə yayımına icazə verildiyini bildirirdi. Bəzi hallarda istisnalarla kürd dilinin işlədilməsinə icazə verilirdi. Təhsil sahəsində isə xüsusi icazə olmazsa, türk dilindən savayı digər dillərin işlədilməsi qadağan olunmuşdur.(4 , 265)

- 2001-ci ildə təqdim olunan məruzədə Türkiyəni təqribən eyni məsələlərdə günahlandıran Aİ bildirirdi ki, başda radio və televiziya sahəsi olmaqla milli azlıqların hüquqları sahəsində cüzi yaxşılaşmalar (məs: kürdcə mahnılar və kürdcə məhəllə reportajlarının aparılmasına icazə verilirdi) gözə çarpsada, təhsil sahəsində bunu söyləmək olmaz. Hətta konstitusiya islahatında da türk dilindən başqa digər bir dildə təhsilin aparılmasına qadağa qoyulmuşdur.

- Növbəti inkişaf məruzələrində (2002-2003) Aİ milli azlıqların hüquqlarının qorunması ilə bağlı məsələyə yenə də geniş yer ayırırdı. Xüsusilə 2003-cü ildə təqdim edilən məruzədə Aİ Komissiyası milli azlıqlar və onların hüquqlarının qorunması bölməsində bildirirdi: » Türkiyə Birləşmiş Millətlərin Mədəni və Siyasi hüquqları ilə bağlı Beynəlxalq Sazişini imzalayarkən 27-ci maddəyə istisna qoymuşdur. Yəni etnik, dini azlıqların öz mədəniyyətlərindən yararlanma, öz dillərini öyrətmə və tətbiqi, həmçinin öz dillərindən istifdənin əhatəsi kiçildilmişdir. Seçki proseslərindədə milli azlıqların TBMM-də təmsil olunması çətinləşmişdir. Bundan əlavə, Aİ Komissiyası qeyd edirdi ki, Türkiyə sadəcə qeyri–müsəlmanları (Lozzanna sazişinə əsasən) azlıqlar adlandırır. Lakin Türkiyə kürdlər də daxil olmaqla digər azlıqları da qəbul etmək məcburiyyətindədir.(4 ,198)

Aİ yalnız 2004-cü ildə verdiyi məruzədə milli azlıqlar məsələsində Türkiyədən nisbətən razılığını ifadə edirdi. Bu əsasən Konstitusiya dəyişikliyi nəticəsində türkcədən savayı digər dillərin işlədilməsi üzərinə qoyulan qadağanın götürülməsi ilə əlaqədar idi. Yəni 2004-cü ildən başlayaraq kürd dili daxil olmaqla bütün dillərdə radio, televiziya yayımlarına və bu dillərin öyrənilməsi prosesinin sərbəstləşdirilməsinə icazə verilirdi. Lakin Aİ Türkiyənin hələ də Avropa Şurası Milli azlıqların hüquqlarının qorunması ilə bağlı Çərçivə sazişini imzalamamasından narahatlığını ifadə edirdi.(4. 268)

2006-cı il məruzəsində isə Aİ Komissiyası Diyarbəkirdə iki yerli televiziya kanalına və Şanlıurfada radio kanalına kürd dilində yayıma icazə verilməsindən bəhs edilirdi. Ancaq sənəddə kino və musiqi proqramları istisna olmaqla digər proqramların yayımına konkret müddətin qoyulması, kürd dilini öyrədən proqramların yayımına isə icazə verilmədiyi qeyd edilirdi.(2 , 274)

Ümumiyyətlə, Cənub-şərqdə vəziyyətin normallaşdırılması, yəni kürd məsələsinin həlli Türkiyənin Aİ –yə inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir və bu günə qədər tərəflər arasında milli azlıqlarla bağlı problem həll edilməmiş qalır. Yuxarıda qeyd etdiyimiz kimi Türkiyə sadəcə yəhudi, erməni və yunanları azlıq olaraq tanıyır və milli azlıqlarla bağlı bağladığı bütün beynəlxalq müqavilələrin yalnız yuxarıda adını çəkdiyimiz xalqlara tətbiq edilməsinin tərəfdarı kimi çıxış edir.

Bununla bərabər, Aİ Türkiyəni öz üzvlüyünə qəbul etməklə Türkiyə daxilində mövcud olan bir sıra problemlərin,o cümlədən milli azlıq problemini həllinə daha tez nail ola bilər.Beləki, Aİ-də siyasi əməkdaşlığın inkişafı İspaniyada, Belçikada və digər dövlətlərdə genişlənən daxili münaqişələrin qarşısını almağın ən əlverişli yollarından biri kimi nəzərdən keçirilir. Kataloniya və bask millətçilərinin fikrincə, Aİ–nin inkişafı tədricən üzv dövlətləri məcbur edəcək ki, öz imtiyazlırını daha çox yuxarıya – Avropa insitutlarına və aşağıya - regionlara versin»(3. 66)

Bu konteksdə hazırki mərhələdə Türkiyə Avropa İttifaqının üzvü kimi insan hüquqları və milli azlıqlarla bağlı problemləri həll etməsi üçün daha böyük imkanlara malik ola bilər, nəinki Aİ–nın üzvülüyünə namizəd ölkə kimi.

## *ƏDƏBİYYAT*

1. Avropa Şurası 800 milyon Avropalı .\ Avropa 3, B 2006, s 32
2. Milli azlıqlar. Qanun jurnalının xüsusi buraxılışı, \ № 6 yanvar 1998 , s 12
3. Həmidov S. Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan», B. 2009, s 195
4.Adnan Kalkan.Avropa Birliyimi ? Türk Birliyimi? . \ İQ Kültür Sanat, İ. 2007, s 503
5.Cihan Dura, Hayriye Atik. Avropa Birliyi, Gömrük Birliyi və Türkiyə. A. 2003, s 483
6. Recep Demir. Avropa Birliyi və Türkiyə. Ayın konusu jurnalı, İ 2004, s 135
7. Zülfü Livaneli. Avropa Birliyi və Türkiyə.\ Ayın konusu jurnalı, İ. 2004, s 111
8. Наталья Катько. Критерии определения меньшинства. Беларусский журнал международного права и международных отношений, 2001 № 2 , стр 116
9.Национальные отношения. Справочник. под общей редакцией В. Л. Калашникова, М. 1997 , стр 112
10. В .А .Тураев. Этнополотология \ Учебние пособие, М . 2004, стр 387

**ЛЕЙЛИ ГАМИДОВА**

## ВОПРОС НАЦИОНАЛЬНЫХ МЕНЬШИНСТВ В ОТНОШЕНИЯХ ТУРЦИИ И ЕС

Несмотря на то, что основа отношений между Турцией и ЕС было заложено в 1960 гг., до сих пор Турция не стала полноправным членом этой организации. Главной причиной такой ситуации считается не выполнение Турцией взятых на себя обязательства. Эти обязательства охватывают политические, экономические и культурные вопросы .

Считая демократические реформы, проведенными в Турции удовлстворительными, в 1990–х годах ЕС дан этой стране статус кандидата в членства. Одноко ЕС считает что, некоторые проблемы, такие как Кипрская проблема, защита прав и свобод национальных меньшинств Турции остаются не до концо рещенными .

В этой статье исследуется проблема защиты прав и свобод национальных меньшинств в Турции, которая считается одной из главных проблем в отношениях Турции и ЕС

**LEILI HAMIDOVA**

## NATIONAL MINORITIES ISSULS IN TURKEY - EU RELATIANS

Though the relationship between Turkey and European Union was established in 1960, Turkey had not been elected to the equitable membership of the Union yet, because Turkey has not fulfilled the liabilities which were defined by European Union. These liabilities cover economic, political and cultural spheres.

In 1990™ the democratic reforms implemented in Turkey were considered satisfactory by European Union and Turkey was given candidate country status of the the Union. But still European Union blames Turkey that it has not solved below mentioned issues: ensuring of economic and political stability, Cyprus problem, protection of their rights and etc.

The issues of national minorities and protection of their rights assuming special importance above enumerated liabilities were analyzed in the article.

***Rəyçilər: t.e.d. V.Həsənov, t.e.d.S.Hacıyev.***

***Azərbaycan Dövlət İqtisad Universitetinin «Azərbaycan tarixi» kafedrasının 21 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***